

# Ağaddin BABAYEV

Amansız ölüm qələm yoldaşımız Ağaddin Babayevi aramızdan apardı.

Ağaddin Abdulla oğlu Babayev 1956-cı il mart ayının 15-də Lənkəran rayonunun Şağlaser kəndində anadan olub. 1972-ci ildə Şağlaser kənd orta məktəbini bitirib. 1979-cu ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatrşünaslıq fakültəsinə daxil olub və 1985-ci ildə oranı bitirib. 1974-1976-cı illərdə həqiqi hərbi xidmətdə olub. 1972-ci ildən əmək fəaliyyətinə başlayıb. Lənkəranın keçmiş Lenin adına sovxozunda fəhlə, Bakıda "Qırmızı Ulduz" İstilik-Elektrik Stansiyasında qazanxana maşinisti, Bakının Nərimanov rayon kommunal təsərrüfatı şöbəsində briqadir, Lənkəran Dövlət Dram Teatrında ədəbi-dram hissə rəhbəri, "Lənkəran" qəzeti redaksiyasında xüsusi müxbir, şöbə müdiri, APA İnformasiya Agentliyinin və APA TV-nin Cənub bürosunun rəhbəri vəzifələrində çalışıb. O, həmçinin pedaqoji fəaliyyətlə də məşğul olub. Uzun müddət Lənkəranın Şağlaser və Xarxatan kənd orta məktəblərində Azərbaycan dili və ədəbiyyatı fənlərini tədris edib.

50 ildən artıq bədii yaradıcılıqla məşğul olub. Hekayə, pyes və şeirləri, habelə rus və dünya ədəbiyyatından tərcümələri müxtəlif almanaxlarda, mətbuat orqanlarında dərc olunub. Bir neçə pyesi və tərcüməsi Lənkəran və Mingəçevir Dövlət Dram Teatrında, Şuşa Dövlət Musiqili Dram Teatrında, Salyan Dövlət Kukla Teatrında tamaşaya qoyulub. Kitabları nəşr edilib. Bir sıra ədəbi müsabiqələrin, o cümlədən dəfələrlə Azərbaycan Raspublikası Medianın İnkişafı Agentliyinin elan etdiyi məqalə müsabiqələrinin qalibi olub. "Qızıl qələm" media mükafatına layiq görülüb.

İstedadlı qələm yoldaşımız, səmimi insan Ağaddin Babayevin işıqlı xatirəsi qəlbimizdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**